**Asif Atanın – İnam Atanın Mütləqə İnam Ocağı**
**Nurtəkin və Üstün Atalıların anası Zəhra xanıma "Yas Mərasimi keçirdi**

*İnam Evində hamı ayaq üstə sayğı duruşunda Mütləqə İnam Bayrağı qarşılandı.*

Mütləqə İnam Ocağının Yükümlüsü **Soylu Atalı** Ataya səcdə ilə mərasim sözünə başladı: "Bu gün Ocağımızın "Yas Quralı" əsasında üzləşdiyimiz hadisə ilə bağlı "Yas Töröni" həyata keçiririk. Bu mərasim Ocağımızın iki Evladı Nurtəkin və Üstün Atalıların anası Zəhra xanımın ölümünə həsr olunub.




Bu qızmar gündə zəhmət çəkib gəldiyiniz üçün hər birinizə təşəkkür edirəm. Qeyd eləmək istəyirəm ki, bu tədbir başqa Ocaq tədbirlərindən müəyyən cəhətləriylə fərqlidir. Ümumi hal birdir. Fərq nədədir? Fərq onunla bağlıdır ki, "Yas Mərasimi" əsasən xalqın fərdi ünvanlarında keçirilir. Amma Ocağın ünvanında da keçirilə bilər. Hər bir xalqın özünün içində bir həyat nizamı var. Xalq bu həyat nizamını yaratmaq üçün, qorumaq üçün və ümumbəşər ailəsində sabaha getmək üçün öz qaydalarını (qurallarını) yaradır, öz böyük mədəniyyətini yaradır. Dünyada öz qaydalarıyla sözünü deyir, öz mədəniyyətiylə özünü ifadə edir. Biz hesab edirik ki, millətimizin böyük olmasına baxmayaraq, o, elə bir aqibət yaşayıb ki, milli müəyyənliyi xeyli dərəcədə zədə götürüb. Başqa sözlə, itirib müəyyənliyini. Bu səbəbdən biz bu quralın həyata keçirilməsinə çox böyük önəm veririk. Ancaq belə bir ənənəni, hadisəni xalqın içində yeritmək, qorumaq, yaşatmaq, bir qom adamla, olduqca çətindir. Bu, nəfəsin gücü çatmayacaq dərəcədə böyük bir enerji tələb eləyir. Böyük eşq tələb eləyir, böyük inam tələb eləyir. Böyük inad tələb eləyir. Ona görə də olduqca çətindir və bu çətinliyin içərisinə girmək özü də xüsusi bir hadisədir. Bəzən ola bilər, toplumda düşünərlər ki, yəqin biz enerjini boşuna verən insanlarıq. Yəni bu çabalar heç bir nəticə verməyəcək, hətta nəinki nəticə verməyəcək, 21-ci əsrdə belə çabalar nəyə lazımdır?! Təbii ki, belə düşünənlər, belə deyənlər də var. Bu da aydındır. Bu təkcə bu gün deyil. Bu, bütün tarix boyu belə olub. Ancaq bununla belə, ayrı-ayrı insanlar özləri anlayırlar neylədiklərini. Atdıqları addımın önəmini başa düşürlər. Onlar hansı çətinliklərin, hansı odun-alovun içərisindən keçirlərsə-keçsinlər,

yenə deyirəm, özlərinin atdıqları addımın önəmini bilirlər. Ona içəridən inanır və bütün ömürlərini, bütün varlıqlarını ona bağlayırlar. Ayrı-ayrı dövrlərdə də belə olub. Bizim qəbul etdiyimiz, etmədiyimiz hadisələrdə də belə olub. Onlar nə dərəcədə axıra qədər doğrudur, önəmlidir, gələcəklidir, məsələnin o tərəfindən asılı olmayaraq, insanlar böyük inamla addımlar atıb, onu yaşadıb həyata keçiriblər və sabaha daşıyıblar. Biz də özlüyümüzdə düşündük, daşındıq, özümüz öz aqibətimiz haqqında qərar verdik. Hər birimiz ayrılıqda. Asif Ata ucu-bucağı görünməyən, nəticəsi adi gözə görünməyən, sabahı hələ də çoxlarına bəlli olmayan bir yol başladı. Biz də bu yolu seçdik və bu yolda addımlamaq üçün öz aqibətimizi müəyyən elədik. Biz özümüzü bu yola həsr elədik. Bizim bütün varlığımız, həyatımız bu Yola bağlıdır. Biz bu Yolun, bu ideyaların sadəcə olaraq icraçısı deyilik. Sadəcə olaraq onu, məqamı gələndə icra eləyək, məqamı gələndə yazaq, məqamı gələndə kiməsə nəsə deyək səviyyəsində icra eləmirik. Bu, bizim həyatımızın yönüdür... Yəni biz bu cür yaşayırıq, bu cür düşünürük...

Bütün həyatını, şüurlu ömrünü bu yola həsr eləyən Nurtəkinin, eləcə də Üstünün kədərinə ortaq oluram. Bu bacıların anası vəfat elədi. O ana ki, baxmayaraq dinlə bağlı adam idi. Biz insanların min ildir içində oturan, qanına hopan məsələyə birdən-birə hücum etməyin yanlısı deyilik, buna görə ona münasibət qurmuruq. Biz ona münasibəti o açıdan qururuq ki, bu xalqın övladıdır. Bu xalqın övladı olaraq xalqın var olmasında onun nə dərəcədə qatqısı ola bilər, nə dərəcədə onun təsiri ola bilər, işi ola bilər və s. Zəhra xanımın da işi, təsiri elə Ocağa iki övlad verməsidir. Bu, balaca söhbət deyil. Ocağa iki övladını verib və onların dalınca daş atmır. Mən öz anamı sevirəm. Ancaq açıq söhbət eləyirəm. Bu, bir yol məsələsidir. Bu mənim fərdimlə, başqasının fərdiylə bağlı məsələ deyil. Mənim anam, ümumiyyətlə, valideynlərim, qohumlarım Asif Atanın yoluna görə mənə daş atdılar. Məni dartdılar dala. Dəli olma, ağlını itirmə, düşmə bu yola dedilər. Yenə deyirəm, analıq, atalıq ayrı bir hadiəsdir, ayrı bir məsələdir. Onların biz qədrini bilirik. Elə Ocaq dünyada atalığın, analığın...təsdiqi üçündür. Ocaqda hər şeyin əsilliyi var. Hər şeyin öz əsilliyinə yetməsi üçün bu ideyalar ortalığa gəlib.

Bu bacıların anası, Zəhra xanım, baxmayaraq ki, başqa bir məslək daşıyıcısıdır, ancaq bunlara heç vaxt daş atmadı. Daim bunların dərdlərinə, qayğılarına ortaq olub. Bir ana kimi onun da öz arzuları vardı: övladlarının həyatında, belə deyim ki, sarsıntıları olmasın. Böyük yükün altında əlbəttə, sarsıntılar var. Bu bacıların ruhani yolda gərginliyi, ağrıları, acıları həmişə bu ananın sevgisində daşıdığı bir ağrı olub. Məhz sevgisində. İtələməsində yox. Buna görə də bu bacıların haqları var. Həm də dediyim kimi, bunların qatıldıqları Yol var. Yaşatdıqları Yol var. Bu Yolun hadisəsi olaraq bu gün biz bu tədbiri həyata keçiririk.

Əlavə olaraq vurğulamaq istəyirəm, tutalım ki, lap bizə bu Yolda mane olmağa çalışmaq istəyən adam olsun, biz ona da bu törəni əsirgəmirik. Yəni xalqın hadisəsidir bu, bizim fərdi istəklərimiz deyil. Ona görə heç kimdən bunu əsirgəmək olmaz.

Onu demək istəyirəm ki, Zəhra xanım haqqında danışıram ki, o balalarına bağlıydı, onların əqidəsinə mane olmurdu. Məsələ onda deyil ki, mane olmurdu deyə biz bu tədbiri keçiririk. Dediyim kimi, olsaydı da keçirərdik. Birinci növbədə burda Nurtəkin, Üstün var. İkinci növbədə, bu, xalqın hadisəsidir və biz bu ənənəni, bu gələnəyi xalqa veririk. Mən bunu ona görə vurğu edirəm ki, Ocağın mövqeyi aydın olsun...

İndi istəyirəm bu yöndə kimin sözü varsa, yəni Nurtəkin Üstün bacılarının anasıyla bağlı kimin sözü varsa, buyurub desin. Sonra qurallarıicra eləyək.




**Günev Atalı:** Ataya səcdə ilə sözünə başlayır:

Ocaq Yükümlüsü Soylu Atalının bu günkü törənimizə yönəlik izahlarına qatılıram. Mən də öz növbəmdə Ocaqçı bacılarıma, Nurtəkin Atalıya və Üstün Atalıya öz adımdan və amaldaşım, onların da ruhani bacısı Elananın adından başsağlığı verirəm.

Elə-belə tarixə nəzər salanda görürük ki, bu xalqın həyatı kədərdən qaynaqlanır. Böyük muğam yaratdı, böyük fəlsəfələr ifadə elədi. Heç vaxt hay-həşirdən, zahiri möhtəşəmlikdən, maddi bolluqdan, zor bolluğundan güc almadı. Kədərdən yapışdı, çünki kədərlənməyən kamilləşməz. Belə bir xalqın bu gün haqqı var ki, öz ənənəsini bu kökdə, bu yöndə yaratsın.

Azərbaycan cəmiyyətinə üz tutub deyərdim: nə vaxta qədər özgələrin tökdüklərini yığışdıracağıq?! Nə vaxta qədər yağıların daşlı-kəsəkli yollarında qara nəfəs olacağıq?! Yetməzmi bunlar? Bu tarixdən bir dərs alaq. Sabaha boylanaq. Özümlüyümüzü yaradaq, millət olaq, adət-ənənəsi – xeyri-şəriylə. Gəlin görək bugünkü cəmiyyətimizdə hansı xeyrimiz, yasımız özümüzü ifadə eləyir. Təbii ki, hamımız deyirik, xeyir işlərimiz (toylarımız) özümlüyümüzü ifadə eləmir. Amma təkcə bu deyil, heç nəyimiz ifadə eləmir. Ona görə gərək öz adət-ənənəmizi, öz yasımızı, xeyrimizi, yəni toyumuzu yaradaq. Bəllidir ki, Asif Ata Ocağı bunu yaradıb. Onun yas qaydaları bütünlüklə bu məzmunu əhatə eləyir. Asif Ata yaratdı, təsdiq elədi. Onun Ocağı da daim bunu cəmiyyətə təqdim eləməkdədir. Buna biganə qalmağa Azərbaycan insanlarının, özəllikcə ziyalıların haqqı yoxdur. Bu gün buna biganə qalmağın özü cinayətdir, Şəri təsdiq eləməkdir, barışmaqdır yadlıqla. Soylu bəy demiş, yaxasını yadlıqların əlinə verir, sonra da hələ bir gileylənir. Yad da bunun yaxasından bərk yapışıb, onun nəyi varsa əlindən alıb, özünün nəyi varsa ona verir və onu özününkü eləyir. Üzü özgəyə olan xalq bəs nə vaxt özünün olacaq, nə vaxt özünə yarayacaq? Bu gün keçirdiyimiz yas törəninin çox böyük önəmi var. Yas mərasimlərimiz bir növ maariflənmək ünvanı olmalıdır. Nə vaxta qədər Yasımızda ərəb moizələrini dinləyəcəyik? Bəs özümüzün Babəkimiz, Nəsimimiz, Füzulimiz, Qorqudumuz, Zərdüşütümüz?! Yoxdurmu dahilərimiz, yoxdurmu fikirlərimiz? Ruhaniyyat bu xalqın kökündə, mayasında var. Ata deyirdi, Azərbaycan mədəniyyətini alsan, dünya mədəniyyəti çox çılpaq qalar. Hansı böyük fikir, dahi fikir Asiya qitəsinin ən böyük övladı Zərdüştün fikrinə çata bilər? Bəşər tarixində, insanlıq yolunda kimin sözü

bu xalqın dediyindən yüksək oldu, – “insan allahdır!”. Xalqın dəyərlərinə yiyə durmaq gərəkdir! Atamız var olsun!

**Soylu Atalı**: Var ol qardaş. Təbii ki, harayın içində ayrı-ayrı inkar məqamları var. Tamamilə təbiidir. Xahiş eləyirəm, düzgün qəbul edin. Ayrı-ayrı məqamlar onunla bağlıdır ki, nə baş verdiyini dərk edək. Yas mərasimində insanlar istər-istəməz söhbətlər eləyirlər. Elə söhbətlər gedir ki, həm yorucu olur, həm də başqa mövzuda olur. Ona görə xalqa doğma olan, doğru olan mövzularda söhbət getməlidir. Dərddən gücalma, kədərdən gücalma yönündə söhbətlər getməlidir. Xalqın qurucu oğullarının, qəhrəmanlarının haqqında söhbətlər olmalı, xalq özünü, özününkünü tanımalıdır. Qoy sənin hədislərin sənin içiyin qonularına çevrilsin. Bunun içərisində epizodik olaraq dünya xalqlarının da böyüklərindən danışmaq olar. Burda heç bir qəbahət yoxdur. Bəşərə bağlı məsələlər – ali məsələlər bizə doğmadır. Amma əsasən xalqın özünün varlığını öyrədən mövzular başda gəlir.




**Abil Ulusoy:** Bu gün Türkün ilk Ruhaniyyat Ocağına iki Evlad vermiş bir ananın xatirəsini anırıq. Zəhra xanımı mən az görmüşdüm. Övladlarıyla isə, yəni həm Qubada olan Elürəklə, həm də Üstün və Nurtəkinlə – Ocağın hər iki Evladıyla ali münasibətimiz var. Bu, bizə uzaqdan təsir edən yas günü deyil. Bir haşiyə çıxacam: mənim atamı yaxından tanıyan ya Günev bəydir, ya Ulusəs xanım. Mən bir dəfə atama belə bir söz dedim. Qəbirstanlıqdan qayıdırdıq. Dedim ki, sən sevinməlisən. Dedi ki, qəbirstanlıqda adam sevinə bilər? Dedim ki, yox, qəbirstanlıqda sevinməlisən demirəm, ümumiyyətlə sevinməlisən. Soruşdu ki, niyə balam? Dedim, sən az sayda türk kişilərindənsən ki, Türkün Ruhaniyyat Ocağına Evlad vermisən. Təvazökarlıqdan qıraq olsa da, həm də Azərbaycan üçün “Uluyurd”çu vermisən. Azərbaycanda az sayda kişiyə məxsus olan bir haldır. Bax, buna sevinməyinə dəyər. Əslində bizim valideynlərimiz də, özlərindən asılı olmayaraq, elədikləri və yaxud mane olmadıqları əməllərinə görə sevinməlidirlər. Zəhra xanım Ruhaniyyatçı deyildi. Ancaq Ruhaniyyatçı olan övladlarının dostu ola bildi. Bunun özü ciddi məsələdir. Çünki ruhaniyyat yolunu tutmuş övladlarına düşmən də ola bilərdi, o qapını onların üzünə bağlamaq

istəyərdi də. Amma övladlarının atdığı addıma mane olmadı. Bu, valideyn üçün, bizim millətçiliklə, yurdçuluqla məşğul olan insanlara qarşı uğurlu münasibətdir.

Həm Üstünün, həm də Nurtəkinin bugünkü böyük itgilərini başa düşürəm. Valideyn itgisidir. Ancaq mən inanıram ki, Ocağın Evladları Atanın dediyi kimi, türk millətinin bir parçası olaraq, bu böyük fəlakətlərindən güc almağı bacaracaqlar. Başınız sağ olsun!

**Soylu Atalı:** Çox sağ ol, qardaş. Mən istəyirəm bir-iki məqama toxunam. Atanın ölümüylə "Yas Quralı"mız yarandı. Daha doğrusu, mən Atanın izharları əsasında işləyib kitab hazırladım. Artıq neçə dəfədir ayrı-ayrı yas mərasimlərində bu qaydaları həyata keçiririk. Təbii ki, bundan sonra da, bizə icazə verilən ünvanlarda həyata keçirəcəyik. Ancaq üzlülük edib zorla yox. Addım-addım, o vaxta qədər ki, Ocaq xalqın həyatında tam oturuşacaq. Bunun ayrı yolu yoxdur...

İndi Vüqar Bəyturanı dinləyək.




**Vüqar Bəyturan**: İlk növbədə onu deyim ki, Zəhra xanımı şəxsən tanımasam da, onun övladlarını – Nurtəkin xanımı və Üstün xanımı tanıyıram və bilirəm ki, həm Ocağa sədaqət baxımından, həm fədakarlıq, prinsipiallıq, daşıdıqları ideyalara bağlılıq baxımından çoxları üçün örnək xanımlardır. Sağlığında Zəhra xanımı görsəydim, belə övladları tərbiyə etdiyinə görə təşəkkürümü bildirərdim, çox sağ ol deyərdim. Amma bu gün artıq aramızda yoxdur deyə ruhu yaşasın deyirəm. Doğrudan da, belə övladlarını tərbiyə eləmək, xalqa vermək, insanlığa bəxş etmək özü böyük qəhrəmanlıqdır.

Mərasimə gəldikdə isə onu demək istəyərdim ki, belə mərasimlərin keçirilməsi təbiidir və həqiqətən də belə mərasimlərdə insan özünü daha rahat hiss eləyir, daha doğrusu, mərasimin məqsədinə uyğun bir halda hiss eləyir. Çünki kiminsə xatirəsini anmaq həqiqətən də indiyə qədər qarşılaşdığım yas mərasimlərində mümkün olmayıb. Açıq deyirəm mən bunu. Şəxsən mənim ruhuma, türk milli ruhuna zidd anlayışlar ifadə olunub həmin mərasimlərdə. Bayaq Abil bəy qeyd etdi. Adətən biz o mərasimlərdə görürürk ki, əksəriyyət narazı olur. Amma ölənin ailəsinin xatirinə fikirlərini ifadə etməkdən çəkinir və deyir ki, ona görə tədbirdə, mərasimdə problem yaratmayaq və s. Ancaq yəqin ki, elə vaxtlar olacaq ki, artıq kütləvi şəkildə bu etirazlar ortaya gələcək. Cəmiyyətdə bu sözlər, bu fikirlər öz yerini tapacaq.

O millətlər böyük olur ki, onun milli dəyərlərinin formalaşmasında əsas rolu oynayan inancları da özününkü olur. Təəssüflər olsun ki, tarixi proseslər elə gətirib ki, elə bir tarix yaşamışıq ki, bu gün bizim inancımız özümüzünkü deyil. Dəfələrlə cəhd eləmişik ki, ayrı-ayrı təriqətlər vasitəsiylə bunu özümüzünküləşdirək, öz dinimizə çevirək. Amma təəssüflər olsun ki, indiyə qədər alınmayıb və yəqin ki, indiyə qədər praktikada alınmayıbsa, bundan sonra da alınası deyil. Bayaq qeyd etdiyim kimi, böyük türk milləti nəhayət öz milli varlığının təcəssümünə, öz ruhuna, öz iddialarına, öz keçdiyi tarixi yola uyğun sırf milli bir dinə, milli bir inanca sahib olmalıdır. Ocağın bu sahədə atdığı addımları təqdir eləyirəm. Uğurlar arzu eləyirəm eyni zamanda. Bugünkü tədbirin ruhuna uyğun olaraq bir daha Zəhra xanımın ruhunun ulusunda yaşamasını diləyirəm. Tədbirin təşkilatçılarına təşəkkür edirəm. Üstün xanıma və Nurtəkin xanıma da başsağlığı verirəm. Bu kədər onlara sabaha baxmağa, öz ideyaları, düşüncələri yönündə mübarizə aparmağa güc versin.

**Soylu Atalı**: Təşəkkür edirəm.
Əkbər bəy, demək istədiyin varmı?




**Əkbər Qoşalı:** Mən Zəhra xanımı bir dəfə görmüşəm Saray qəsəbəsində olanda. Onun qızının həyətində Soylu qardaşımın iştirakı ilə, belə deyək də, şitil, ağac, tinglər götürüb aparırdım öz həyətimdə basdırmaq üçün. Türk xalqında, xüsusilə də Osmanlıda daha çox inkişaf eləmişdi bu. Sizin hər biriniz məndən daha yaxşı bilirsiniz, yəqin ki, ağac əkmək, xüsusilə, məsələn, çinar ağacı əkmək, bir dövlətin xarakterini göstərirdi. Türklər hara gedirdilərsə, kəşf etdikəri yerə çinar əkərdilər. Günü bu gün də Osmanlıdan yadigar Avropada oranın kəşf etdiyi böyük şəhərlərdə Osmanlı yadigarı olan ağaclar qalmaqdadır. Doğrudur, mən orda dövləti vəzifə eləmirdim və çinar ağacı gətirməyə getməmişdim. Amma mən elə bilirəm ki, Zəhra xanım bu gün... əslində bu gün mən onu fikirləşməyə başlamışam. Sanki o gün qısa bir söhbətimizlə o mənim də könlümə bir toxum əkmişdir. Əslində ən böyük toxumu, ən böyük cəmiyyətə töhvəsi də məndən öncəki qardaşlarımın dedikləri kimi, bizim tanıdığımız, şəxsən mən ikisini yaxından tanıyıram. Onlardan birini də daha yaxından tanıyıram. Bu Evladları vermişdir. Bu Evladlarla davam eləyir onun, belə deyək də, missiyası. Azərbaycan qadını missiyası, Azərbaycan vətəndaşı və türk insanı missiyası. Ruhu yaşasın! Hesab eləyirəm ki, mənim daha çox tanıdığım Nurtəkinin timsalında bu ananın ruhu yaşayır.

**Soylu Atalı:** Çox sağ olun.
Rafiq müəllim, söz demək istəyirsinizmi?



**Rafiq Tağı:** ... O adamda, məncə, heç bir kompleks yox idi. İçəridən əslində azad bir insan idi. Elə bunların təzahürü olaraq da o, övladlarını, siz demiş, geri çəkmədi, yollarından qaytarmadı. Yəni azadlığa meyilli insan idi. Kim nə deyir-desin, bu, Nurtəkin xanım və Üstün xanım üçün böyük itgidir. Böyük xatirələrdən sanki uzaqlaşırlar. Baxma, anadır. Biz nə qədər indi müəyyən sözlər desək də, ay bu sevincdir, filan, mən hesab eləyirəm ki, insan gedəndə bu böyük itgidir. Çünki əvəzolunmaz insandır ana. Buna baxmayaraq, necə deyərlər, ölənlə ölməzlər, gedənlə getməzlər. Onun xatirəsini daim əziz tutaraq, necə deyim, ona layiq olaraq yaşamlıdırlar. Mən Nurtəkin xanıma və Üstün xanıma dözüm diləyirəm. Ruhu yaşasın.

**Soylu Atalı:** Sağ olun.
Aydın müəllim bizim tədbirimizdə iki dəfə olub. Sözü varsa, onu da dinləyək.

**Aydın Hacalov**: Mən sizin dediklərinizə qoşuluram. Mən bu xanımlardan Nurtəkini tanıyıram. Onun şəxsində, onunla apardığımız söhbətlərin, müşahidələrimin nəticəsində müəyyən bir fikrə gəlmişəm ki, belə bir qız böyüdən valideyn, doğrudan da, bəxtiyardır. Bütün fəxarətlə deyilən sözlərə layiqdir. Mən hər iki bacıya başsağlığı verirəm, aranızdan getmiş ananıza ruhu yaşasın deyirəm.

**Soylu Atalı:** Sağ olun.
Ulusəs bacımız, buyurun!

**Ulusəs Atalı:** Bu istidə bura gələn hər kəsə təşəkkür edirəm və sözümə başlamazdan öncə Ataya səcdə qılıram.

Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim Asif Ataya – İnam Ataya Ali Səcdəylə!

Bayrağımızı öpürəm!

**Kədər üstə düşüncələr**

Nurtəkin bütün ömrünü Asif Atanın Mütləqə İnam Ocağına həsr etdi. 22 yaşında gənc, saf, təmiz, məsum bir qız. Nə idi bu qızı Asif Ata yoluna çəkən? Gəncliyin coşğunluq çağında, sevib-sevilmək məqamında, duyğularının hərarətli bir anında Nurtəkin İnam Ocağına gəldi. Nurtəkin özünü doğru məcraya yönəltmişdi. Bu, təsadüfənmi, zərurətdənmi baş vermişdi, mən bilmirəm. Hər iki halda bu xoşbəxtlik məqamı idi Nurtəkin üçün. Onlarla başqa gənclər də bu məcraya düşmüşdülər. Lakin yolu gedə bilmədilər. Nurtəkin təklərdən oldu.

Nurtəkin özünə düz yol seçmişdi.

Nurtəkində Mütləqi duymaq həssaslığı var. Həqiqəti anlamaq, Gözəlliyi hiss etmək aşılanmışdı ona elə bil. Xislətində Ucalığa heyranlıq, Böyüklüyə Səcdə halı var. Bu duyğu Ataya, Amal Yoluna aşiqlik yaratdı onda. Atalığa, Amala aşiqlik halı bu vaxta qədər dəyişmədi. Bütövləşdi, nadir Şəxslərdən biri oldu – Amalını yaşam tərzinə çevirən nadirlərdən.

İnsan Məna ilə yaşadıqda həyat gözəldir. Həyat Mütləqiliyi ilə gözəldir. Həyatı Mütləqə İnamla yaşamaq isə Xoşbəxtlikdir!

Mənasız, Mütləqsiz həyat yaşayanlar Gözəlliyi başqa yerdə axtarmalı olurlar. Təzahürlərlə, görüntülərlə, maddi yaşamın firavanlığı ilə yetərlənirlər. Firavan yaşayanların hər şeyi olur, xoşbəxtlikdən başqa. Çünki xoşbəxtlik, gözəllik ruhani keyfiyyətdir. Gözəl yaşamaq insanın mənəvi halıdır, maddi imkanı deyil.

Nurtəkinin xoşbəxtliyi ailə-məişət, cəmiyyət ölçülərindən üstün oldu, insani, bəşəri dəyərlərə uyğun bir səviyyəyə qalxdı. Bu, Təklərə layiq aqibətdir. Bu, sığmazlıq, azadlıq tələbi ilə dolmaqla yanaşı kamil insan səviyyəsinə can atan bir insanın taleyidir. Bu, Ali duyğularla yaşamaq deməkdir.

Ali duyğular ən çox kədər üstə yaranır. Tarixdə və bugünümüzdə insana qarşı aşağılamalar kədər hadisəsidir. Dünyanın özündən ayrılmasına kədərlənmək insanı ali duyğulara yönəldir. İnsan ali duyğulara üz tutur ki, ədaləti, vicdançılığı bərqərar etsin dünyada. Bu baxımdan Asif Atanın Mütləqə İnam Yolu dünyanı dəyişdirmək, insanın haqqını özünə qaytarmaq uğrunda ruhani mübarizədir. Bu tələbin gerçəkləşməsi yüz illərə bərabər olsa da, onun ilkinləri, cəfakeşləri olmalıdır. Mütləqə İnama üz tutmaq – sabahla yaşamaq, sabahı bugün yaşamaq səadətidir. Bu seçim nadir insanlara xas olur. Həqiqətə təmənnasız, idraklı səviyyədə xidmət etmək ömrə nizam verir.

Asif Ata təliminin ciddiliyi, çətinliyi çox adamı bu yoldan çəkindirir. Yol nadirlərə, təklərə qalır.

İnsan insanlığını təsdiq etmək üçün Şərlə döyüşməlidir – Ata təlimi bunu anladır. Hər kəs öz içindəki Şəri döyə bilərsə, dünya şərdən təmizlənər. İctimai gedişat saflaşar. Bunun üçün özüylədöyüş əməlinə yetmək gərək. Əlbəttə, bu, çox çətin alınır.

Niyə hər bir insanın görməli olduğunu tək-tək insanlar görür ancaq? Niyə Həqiqət Yoluna Nurtəkin kimi təklər düşür, yüzlərlə başqaları düşmür? Bunun səbəbi nədir?

Şübhəsiz bunun cavabını insani, milli, irsi təməldə axtarmaq gərək. İrsi dedikdə bəşəri dəyərlərin nəsillərdən nəsillərə ötürülməsini nəzərdə tuturam. Valideynlər özləri də bilmədən bu dəyərləri övladlarına ötürürlər.

Eyni zamanda heç bir valideyn övladının Həqiqət yoluna düşməsini istəmir. Çünki Həqiqətin yükünü daşımaq ağırdır. Heç kəs istəmir ki, balası bu ağırlığın altına girsin. Hələ mən odda yandırılmaqdan, dərisi soyulmaqdan, şaqqalanmaqdan, təhqir və böhtanlara uğramaqdan danışmıram. Ancaq onu bilirəm ki, Soylu Atalı demiş: "dünya az sayda həqiqətçilərin hesabına ayaqda durur"...

"Dünyanın dərdi təkcə sənə qalıb?!" – deyiblər Asif Ataya onun valideynləri. Soylu Atalını Asif Atadan ayırmaq məqsədiylə anası Cahan xanım özünü yandırmaq həddinə çatıb.

Valideynlərinin xeyir-duasını almaq nəsib olmayır Həqiqət yolçularına.

Nurtəkinin Amal aşiqliyi hədsizdir, alidir, ucadır. O, bir insanı sevirdi. O insan Nurtəkinə Yol yoldaşı, həm də həyat yoldaşı olmalı idi. Daşıdığı Ocaq yükünə çiynini verəcəkdi. Vaxtsız və qəfil

ölüm onun bu ümidini qırdı, bizi də sarsıtdı. Mən bu hadisəylə bağlı Nurtəkinin halında fəlakət olacağından qorxurdum. Onu qorumaq haqqında düşünürdüm. Ancaq ayrı halın şahidi oldum. O, kədərinə doğmalaşdı, yenilmədi. Onun bu ləyaqəti məni heyrətə gətirdi. Bu kədərli hadisədən sonra Nurtəkin Ocaq işlərini əvvəlki şövqlə davam etdirdi.

Nurtəkin atası Üzeyir bəyi gənc yaşlarında itirmişdi. Onun bu itkiylə bağlı keçirdiyi duyğular haqqında mənim bilgim yoxdur. Amma Asif Atanın ölümündən sonra daşıdığı kədər halı mənə bəllidir. Belə bir kədərin gənc qıza təsiri çox güclü olub. Ömrünü həsr etdiyi Yolun yaradıcısının ölümü Nurtəkində bu Yolun yükünü çəkmək məsuliyyəti yaratdı. Kədər Nurtəkini müdrikləşdirdi. Cavan yaşda müdrik bir insana çevirdi.

Bir faktı söyləmək bəs edər ki, Asif Atanın ölümündən sonra dağılmış Ocağın yenidən qurulmasında və yaşadılmasında Nurtəkin üç şəxsiyyətdən, üç kişidən biri oldu. Bu, "Nurtəkinin əməyi, hünəri misilsizdir!" deməyə haqq verir. Nurtəkinin yaşamı şəffafdır, göz qabağındadır. O, örnəkdir.

Bütün valideynlər kimi Zəhra xanım da qızları Nurtəkin və Üstünün Ocaqçı olmağına razı deyildi. O vaxtlar təbii ki, mən Zəhra xanımla tanış deyildim. Mənim Zəhra xanımla tanışlığım axır 3-4 ilə təsadüf edir. Zəhra xanım həm zəhmətkeş, həm əzabkeş insan idi. O, əlində, ovcunda böyütdüyü saf, məsum qızlarının Həqiqət yoluna düşdüklərinə qarşı cəmiyyətin anlamazlığı ilə döyüşürdü. Çünki Nürtəkinin, Üstünün inadı, qətiyyəti Zəhra xanımı qızlarını Asif Ata Yolundan uzaqlaşdırmaq niyyətindən vaz keçməyə məcbur etmişdi. Üstəlik o, öz analıq xeyir-duasını da vermişdi. Bu, yaxşı hal idi.

Zəhra xanım Ocaqçı qızları ilə ruhani ünsiyyətdə çox olurdu. Ana ilə qızlar arasında ruhani anlaşma səviyyəsi yaranmışdı. Hətta Zəhra xanım Ocaq ədəbiyyatlarını oxuyur, qızlarının Ocaqçılığı ilə maraqlanırdı. İndi birdən-birə bu ananı itirməyin Nurtəkinə, Üstünə hansı halı yaşatdığını mən dərk edirəm və ağrıyıram. Zəhra xanım Ocağa doğma idi öz halı ilə. Ona görə bu xanımın ölümü Ocağın da itgisidir.

Amaldaşlarım Nurtəkin və Üstün! Mən inanıram ki, bu kədər sizi əyməyəcək, əksinə, güc alacaqsınız. Kədəriniz Ocaqda ali fərəhə çevriləcək.

Zəhra xanımın ruhu hər zaman sizin Ocaqçılıq ləyaqətinizdə yaşayacaq. Bu cür qızları olan ananın ruhu onlarda yaşayacaq. Yurdun, Ulusun var olsun, Zəhra xanım! Başın sağ olsun, Nurtəkin, Üstün, Elürək. Ruhunuz uca olsun!

***Atamız var olsun!***

**Soylu Atalı:** Təşəkkür edirəm, Ulusəs xanım. İki kəlmə, öz fikirlərini oxuduğu üçün Ulusəs xanım haqqında istəyirəm deyim. Asif Atanın Ocağına 8 ildir bağlıdır. Amma Ocaqçı deyildi. 8 ildir sadəcə Ocağı tapıb, onunla maraqlanıb. Əvvəl özünün ayrı ictimai fəaliyyətləri də olub. Eyni zamanda dövlət işində də işləyib. Səhiyyə Nazirliyində çalışıb və s. Ancaq o, bütün bu ictimai fəaliyyətlərinin üzərinə qalxdı. Ocağa daxil olduqca Atanı öyrənir. Oxuduqca, öyrəndikcə özünün bu vaxta qədərki ictimai fəaliyyətlərinin tamamilə yetərsiz olduğu qənaətinə gəlib. Bu onun içində möhkəmlənib. Bundan başqa o, Ocaqçıları da müşahidə eləyir, öyrənir. Bu hal özü təqdirəlayiqdir...

Başqa sözü olan yoxdursa, Nurtəkin söz desin. Buyur.




**Nurtəkin Atalı:** Hər birinizə təşəkkür eləyirəm bura gəldiyinizə görə. Beş gündür ki, mən anamı itirmişəm. Yas mərasiminin halını hərtərəfli yaşayıram bütün ağırlığıyla. Atam öləndə 15 yaşım var idi. Üstünün də 9 yaşı vardı. Üstün ən kiçiyimizdir. Altı övladıq. Atam maddi baxımdan imkanlı idi. 15 yaşıma qədər mən xaraktercə də başqa idim. Çox inanırdım adamlara. Bizim evimiz dolurdu-daşırdı. Atam öldükdən sonra isə mən qohum-əqraba arasında təmənnanın nə olduğunu gördüm. Belə bir atalar sözü var: bağda ərik var idi, salaməleyk var idi. Mən onu gördüm. Anam 42 yaşında ikən 6 övladla qaldı. Ən böyük qardaşımın 21 yaşı var idi, əsgərlikdən yenicə gəlmişdi. Qalan bütün qızlar qardaşımdan kiçik idi. Anam 42 yaşından sonra, 22 il atamsız yaşadı. Yəni 22 il atamla, 22 il də atamsız yaşadı. 6 övladını böyütdü. Mən anamdan hallalıqdan usanmamaq öyrəndim. Halal zəhmətlə böyümək öyrəndim. Doğru danışmaq öyrəndim. Yalanı sevməmək öyrəndim. Yəni bir çox xarakterik şeylər var ki, onlar mənə anamdan keçib. Bizə, Üstünə və mənə. Anamın özü isə yaş yarımlıqdan yetim qalıb. Babam sonradan evlənib, 4 uşağı olub, 2 bacı, 2 qardaş. Anam onların da əziyyətini çəkib. Bütün o çətinliklər anamın xarakterini möhkəmlətmişdi, mətinləşdirmişdi. Anamın iradəsi özünün yaşıdlarından fərqlənirdi. O fərqi mən həmişə görürdüm anamda. Burda da qeyd olundu, doğrudan da, Ocaqçılar arasında az adamlar olar ki, anası öz övladının Ocağı seçməsiylə barışsın. Anam məni Ocağa yönəlik çox məsələlərdə başa düşürdü. Amma bu onun üçün həqiqətən də çətin idi. Çünki qohum-əqrabanın tənəsi vardı. Bax, elə məqam olub ki, yas yerinə gedib, orda deyiblər ki, hə, o qızlar Ocağa gediblər. Orda onlara pul vermirlər. Axı onlar ora niyə gedirlər? Çünki bilirsiniz də, cəmiyyətimizdə qız uşağı, deyək ki, öz ömrünü millətinə versin, ya bu yöndə nəsə bir addım atsın. Anam orda onların cavabını verirdi və mənə heç vaxt gəlib heç bir söz demirdi ki, məsələn, adamlar arasında mənə belə deyirlər. Onu mən başqa adamlardan eşitmişəm. Mən həm fəxr eləyirdim, həm də fikirləşirdim ki, anam buna məruz qalıb. Bir az da ona içimdə acıyırdım. Mən anamın simasında həm də yaxın sirdaşımı itirdim, həm dostumu itirdim. Yəni həqiqətən türk qadınına xas bir qadın idi. Bir məqamı danışacam uşaqlığımla bağlı.

Demək, 12-13 yaşım olardı. Bizim qonşunun bağını talamışdılar, tələf eləmişdilər. Qonşu arvad anama dedi ki, sənin qızların yaşda uşaqlar eləyib bunu. Anam onun üstünə yeridi ki, sən nə danışırsan, mənim balam onu eləməz. Mən gördüm anam bizi necə müdafiə eləyir. Biz də anamın yanında durmuşduq. Məni elə ağlamaq tutdu ki. Qonşu qadın da elə bildi mənim suçum var, onun

üçün məni ağlamaq tutub. Amma anamın mənə görə, bacılarım da ordaydı, üstünə şığımağı məni elə kövrəltdi ki, ağladım...

Mən Ocağa gələndə o mənə dedi ki, mən istəmirəm, qız uşağısan, necə olacaq? Yəni bizdən getməyib heç kim başqa yola. Mən ona bir söz dedim, əgər mən səhv eləsəm də, qoy bu mənim səhvim olsun. Doğrum olsa da, qoy mənim doğrum olsun. Amma istəyirəm ki, o addımı mən özüm atam. Anam da heç bir şey demədi. Anamı yalnız təmin eləyən o idi ki, o görürdü mən bu yolda özümü tapmışam. Həm də mən fərəhliyəm. Ocaqçıları da o görürdü. Amma cəmiyyət də var axı. Məsələn, elə nə qədər biz desək də Ocaqçı belə, Ocaqçılıq yüksək bir şeydir, başqaları başqa söz gəzdirirlər, ay bu allahsızdır, dinsizdir...

Mən sizə qohumlar arasında bir məqamı danışacam. Elə ki, söz yayılır, adamlar başqa cür qəbul edirlər. Demək, bir dəfə gəlnimizin nənəsi bizim evdə idi. Bacıma cehiz düzəldirdilər. Kimsə dedi ki, Ocaqçılar gəlir. Gəlinin nənəsi yaşlı bir arvad idi. Ocaqçı sözü eşidəndə birdən təlaşlandı, keçdi başqa otağa. Gələn Soylu Atalı idi, o vaxtkı bir Ocaqçı ilə. Onlar gəlib oturdular. Anam da oturdu, onlarla danışdı. O yaşlı qadın da içəridən baxır. Eşidir bütün söhbəti. Mənə çönüb dedi ki, a bala, vallah, adamdırlar da. Mən də dedim ki, ay xala bəs kim olacaqlar?!

Adamlar Ocağı tam anlamayanda Ocaqçı gəlir sözündən qorxurlar. Fikirləşirlər ki, görəsən bunlar nədirlər?

**Soylu Atalı:** Adamyeyənlərdir. Ata deyirdi, oğul, Ataya bircə adamyeyən sözü qaldı deməsinlər. Hər şey deyiblər.

Yükün altına girdinsə, bu yola düşdünsə, hazır olmalısan hər şeyə.

Təbiidir, mövcud bir gedişata qarşı qoyursan özünü. İstəyirsən başqa cür olsun. Cəmiyyətin yüz illərlə yaşadığı bir gedişatın dəyişilməsini istəyirsən, əlbəttə, sənə daş atacaqlar.




**Nurtəkin Atalı:** ... Mən anamı itirmişəm. Çox ağır bir şeydir. Sözlə ifadə olunmayan bir şeydir. Bunun nə demək olduğunu həqiqətən ifadə eləmək mümkün deyil. Yəni o əl ki, sən istəyirsən, o sənə toxunmayacaq. Bilirsən ki, əbədi bir həsrət yaşayacaqsan. O yanğı yandıracaq içini. Amma onun xatirələrini düşünür, onu yaşadırsansa, belin əyilməyəcək.

Hər bir ana istəyər ki, övladı üçün rahat olsun, yaxşı olsun. Onun üçün ağrı olmasın, əzab olmasın. Amma mən qəti əminəm ki, mən Ocaqdan dönsəydim, onun gözündə kiçilərdim. O, fikirləşərdi ki, hə, qızım yolunu sonacan getmədi. Niyə getmədi? Bax, elə bir yön də var idi onda.

Bu gün sizin gəlişiniz yalnız mənim anama qiymət deyil, ümumiyyətlə, insanlığa olan qiymətdir. Ölümün qaçılmaz olduğunu hər kəs bilir. Bu mənə təsəlli deyil, mənim təsəlliyə ehtiyacım yoxdur. Sadəcə içimdə yanıram. Mən o yanğıya ağlayıram. Mən o əbədi həsrətə ağlayıram. Əlim əlinə çatmayacaq, görməyəcək gözüm, axtaracaq. Mən ona yanıram, ağlayıram. Mən başa düşürəm, ölüm həyatın qaydasıdır. Amma onu yaşamaq özü çox ağırdır. Bununla belə, bu mərasim məni anama təzədən qovuşdurur. Mən o xatirələri yada salıram. Yəni elə bil ki, təzədən o xatirələrdə, o anlarda qovuşuram ona. Bu da qovuşmağın başqa bir formasıdır. Ölümlə görüşmək, həyatla görüşmək. Ata deyir ki, kədərdən qəhərlənməyə nə var. Kədərdən bəhrələnmək gərək. Yəni sınmamaq. Burda deyilən hər bir söz mənə ciddi dayaqdır.

Mən Asif Atanı itirəndə 6 ay özümə gələ bilmədim. Çox yaxşı yadımdadır. Ataya elə bağlanmışdım ki. Atanı yaşatmaq istəyridim. Amma bilmirdim necə yaşayım. Çünki Ocağa gəlişim də qısa idi. Mən onda Soylunun üzünə baxırdım. Çünki bilirdim, Soylu Atayla daha çox təmasda olub. Mən fikirləşirdim ki, o, kədərə necə dözür? Onun sevgisi daha böyükdür. Sonra Soylu mənə əməllər, söhbətlər, görüşlər öyrətdi. Mən başa düşdüm ki, Asif Atanı necə yaşatmalıyam. Kədəri ötmək mən ona deyirəm...

Atamız Var olsun!

**Soylu Atalı**: Sən də var ol.

İndi isə biz mərasimin məzmununu izhar eləyəcəyik. Bu məzmun Atanın "Mütləq" adlı izharı ilə başlayır.



**Günev Atalı (Oxuyur):**

## MÜTLƏQ

Təbiətdə, Mənəviyyatda, Kainatın Ahəngində, Gözəllikdə, İdrakda, Ehtizazda, Vəcddə, Analıqda, Məhəbbətdə, Ruhun Ülvi Xilqətində, Bəşərin Özündən Böyük Mənasında, Ürəyin Ürəyə Qovuşmaq Arzusunda, İdeala qarşısıalınmaz Meyildə, Dostluqda, Həyada, İsmətdə, Dünənlə Bugünün Təmasında, Özündənkeçmədə, Qeyrətdə, Müqəddəsliyin Əfsunlu Cazibədarlığında Əbədi, Sonsuz Mütləq yaşayır.

***Mənim Allahım Odur!***

Sözə sığmayan, nisbi hadisələrin daxilində yaşayan, fəqət onlardan Yüksək və Kamil olan Mütləq!

Zəkada Dahilik, Mənəviyyatda Qəhrəmanlıq, Sifətdə Ruhani Gözəlliyin İfadəsi, Hissiyyatda Sevgi, ictimai həyatda – Azadlıq!

Mövcudiyyatda – Mütləqə qovuşmaq diləyi, Tarixdə – Xalqın Ölməzliyi, Təbiətdə – Dağların Vüqarı, Səmanın Sehrli Ənginliyi, Cəmiyyətdə – Torpağın Vətən səviyyəsinə qalxması!

***Bunlar Mütləqin təzahürləridir!***

***Mənim Allahım Mütləqdir!***

İnsan Özündənkeçmə, Fədakarlıq Yüksəkliyinə qalxır, Adiliyindən, Keçiciliyindən, Qorxu Duyğusundan xilas olursa, Özündəki Mütləqə yaxınlaşır!

Xalq sonsuz Mətanət, Əzab-Əziyyət bahasına öz bənzərsizliyini, Bəşəri Ləyaqətini saxlayırsa, – Özündəki Mütləqə yaxınlaşır!

Ana Övladına Məhəbbətdə Dahilik göstərirsə – Özündəki Mütləqə yaxınlaşır!

Məhəbbətdə iki şəxs bir olursa, cismani qovuşma Ruhani Qovuşmaya çevrilirsə – İnsan Özündəki Mütləqə yaxınlaşır!

Günəş Yerə, Torpağa, Canlılara, Bitkilərə öz Şəfqətini Səxavətlə paylayırsa – özündəki Mütləqə yaxınlaşır!

Sifətdə İnsanın Dünyaya sığmayan Mahiyyəti öz İfadəsini tapırsa, – Sifətdə Mütləq İşığı parıldayır!

Musiqinin Vəcdli, Sehrli, Sirli səsi – Mütləqin səsidir…

Şəxsiyyətin özünü yenidən yaratmaq əzmi – Mütləqin təzahürüdür.

Peyğəmbərlərin Sözlərində, Qəhrəmanların Əməllərində Mütləq yaşayır!

Zülmə qarşı hiddətdə, eybəcərliyə qarşı Nifrətdə, Mərhəmətdə, Qüdsiyyətdə Mütləq yaşayır!

Gecə Sükutunda, Səhər Oyanmasında, Şimşək Nərəsində, Yağışda, Qarda Mütləq yaşayır!

Ruhun bədən üzərində, İnsaniliyin Heyvanilik üzərində, Müdrikliyin Naşılıq üzərində qələbəsində Mütləq yaşayır!

Amalın Ömrə Hakim olmasında Mütləq yaşayır!

***Mənim Allahım Mütləqdir!***

Mən Ona Səcdə qılıram. Onunla yaşayıram. Onun tələblərinə əməl edirəm.

Mütləq Dünyada təzahür edir, Dünyanın daxilindədir. Ancaq Dünya təkcə Mütləqdən ibarət deyil.

O, həm də şərdən, naqislikdən, çirkinlikdən, adilikdən, bəsitlikdən ibarətdir.

Dünya heç vaxt tam Mütləq olmur.

Mütləq Həmişə Gerçəklikdən Yüksəkdir!

Ancaq Gerçəklikdə həmişə Mütləqə can atmağa, ona yaxınlaşmağa, onunla bir olmağa meyil var.

Dünya heç vaxt tam Mütləq olmur, ancaq Dünya həm də heç vaxt Mütləqsiz olmur.

Mütləq həmişə Dünyada özünü büruzə verir, həm də Dünya ona yaxınlaşmağa can atır.

***Mənim Allahım Mütləqdir!***

Mütləq İnam, Mütləq Gözəllik, Mütləq Həqiqət, Mütləq Tərəqqi, Mütləq Ədalət, Mütləq Fədakarlıq!

Mütləq məni Qanadlandırır, Qəhrəmanlaşdırır, Dahiləşdirir, Peyğəmbərləşdirir.

Özümlə Döyüşürəm, öz üzərimdə Qələbə çalıram, Gerçəkliklə razılaşmıram, Eybəcərliklə barışmıram, daim **Mütləqə** doğru irəliləyirəm.

***Həm Əlçatmazdır Mütləq, həm də Yaxın!***

Əlçatmazdır, çünki Gerçəklikdən Kamildir, Yüksəkdir.

Yaxındır, çünki özünü Gerçəklikdə büruzə verir, əməllərdə, hadisələrdə, keyfiyyətlərdə aşkara çıxır.

***Həm Sonsuzdur Mütləq, həm də Sonlu!***

Sonsuzdur, çünki Mahiyyətini Gerçəklikdə heç vaxt tam ifadə etmir.

Sonludur, çünki Gözəl və Mənalı hadisələrdə təzahür edir!

***Həm Görünəndir Mütləq, həm də Görünməz!***

Görünəndir – ayrı-ayrı İnsanlarda, Gözəlliklərdə, Məziyyətlərdə, Təzahürlərdə!

Görünməzdir, çünki özü öz təzahürlərindən Artıqdır, Alidir, Böyükdür.

Bu səbəbdən də mən Mütləqi həm görürəm, həm də görmürəm!

Görürəm Ülviyyətlə, Qüdsiyyətlə görüşəndə, ona qovuşanda, onda itəndə!

Görmürəm, çünki Mütləq bu gördüklərimdən daha Kamil, daha Mənalı, daha Möhtəşəmdir!

Görünən Mütləq məni görünməyən Mütləqlə Ruhani qovuşmağa hazırlayır, birincidə ikincinin nişanələrini görürəm.

Peyğəmbərlərdə, Müdriklərdə, Özündən Keçənlərdə, Təbiətdə mən Mütləqin təzahürləriylə görüşürəm, onlarla bir oluram, Qüdrətim hədsiz dərəcədə artır; ancaq mən dərk edirəm ki, bunlar Günəşin Şüalarıdır, Günəş isə Şüaların cəmindən Artıqdır.

Mütləq Dünyanı yaratmayıb.

Ancaq Dünyanın Ülvi Mənasını, Sığmazlığını, özündən kənara çıxmaq, İdeala qovuşmaq Qüdrətini yaradıb.

Mütləqə Səcdə qılıram, üzümü Ona tuturam və deyirəm:

– Ey yerə-göyə sığmayan, tayı-bərabəri olmayan, Dünyada nə varsa, hamısına Ali Məna, Gözəllik, Ülvilik verən – Mütləq!

Mənə kömək et!

Yanında cılızam, kiçiyəm, naqisəm, nöqsanlıyam, günahlıyam, qəbahətliyəm!

Qolumdan qaldır, böyüt, artır, yüksəlt, təmizlə!

Müqəddəslik suyunda çimizdir, zəifliyimdən, keçiciliyimdən, naqisliyimdən uzaqlaşım!

Necə varamsa, azam, cılızam, səndən uzağam.

Yaxınlaşdır məni özünə.

Həmişə mənimlə ol.

Qəmimdə də, sevincimdə də, balacalığımda da, yetkinliyimdə də, cavanlığımda da, qocalığımda da, ölüm saatımda da, ümid məqamımda da – məni tək qoyma!

Ömrüm boyu sənə xidmət edəcəyəm!

Dünyada, İnsanda, Dünəndə, Bugündə Gözəl, Mənalı, Müqəddəs nə varsa, hamısını yığacam qəlbimə, onlardan daha Kamil bir Ruhani Surət yaradacam Mənəviyyatımda və ona səcdə qılacam.

Sən mənim Atamsan!

Doğmam, Ülvim, Müqəddəsim – Mütləqimsən!

**Soylu Atalı:** İndi isə ölənin ölümlə görüşünü ifadə eləyən “Ölümlə Görüş” izharı.

**Göylü Atalı (Oxuyur):**

## ÖLÜMLƏ GÖRÜŞ

– Məni aparmağamı gəlmisən, Ölüm? Gedək. Səndən qorxum yoxdur! Çünki sən məni öldürə bilməyəcəksən!

**Cismim itməyəcək.** Sabahkılarda təzədən peyda olacaq.

Gözüm, sifətim, dodaqlarım kimdəsə təkrar olunacaq. Sən olsa-olsa mənim indiki cismani biçimimi öldürürsən.

Bu, ani ölümdür!

Cismimdə nə varsa – başqasında bərpa olunacaq: gözüm birinə qismət olacaq, saçım digərinə, əllərim bir başqasına.

**Cismimdən heç nə itməyəcək.**

Kimsə dünyaya mənim gözlərimlə baxacaq, mənim dodaqlarımla güləcək.

Sən mənimlə bacara bilməzsən, ölüm!

İndi tamam, vahidəm, sabah səpiləcəm ömürlərə, talelərə!

Ruhaniliyimə heç cür xələl gətirə bilməzsən! Heç bir ali fikrim, duyğum, vəcdim, ehtizazım ölmür!

Peyğəmbərliyim, filosofluğum, şairliyim ölmür.

Hərarətli misram, vəcdli ideyam – ölmür!

Bir vaxt naşıydım, zəifdim; gəlişini dəhşət sanırdım, elə bilirdim gəlməyinlə heçə çevriləcəm.

İndi başa düşdüm, gördüm ki, qarşımda acizsən!

Müqəddəsliyim əbədidir – öldürə bilmədin!

Dahiliyim, Qəhrəmanlığım əbədidir – öldürə bilmədin!

Məhəbbətim əbədidir – öldürə bilmədin!

Zərdüştüm də sağdır – Füzulim də, Muğamatım da sağdır – Nəsimim də, Buddam da sağdır – Platonum da.

Ruhum onlarda cəmlənib, onları öldürə bilməmisən!

Sən məndə böyüklüyü öldürə bilmirsən, balacalığı öldürürsən, sonsuzluğu öldürə bilmirsən, keçiciliyi öldürürsən, Mənəviliyi öldürə bilmirsən – heyvaniliyi öldürürsən.

Sən mənim bugünümü əlimdən alırsan, ancaq sabaha qovuşdurursan!

Mənə oxşayan saysız-hesabsız körpələr gələcək dünyaya və ürəklərdə əbədi ruhanilik gəzdirəcəklər!

Naşısan, ölüm!

Elə bildin məni yer üzündən siləcəksən!

Səhv elədin, ölüm.

**Mənə Ölüm Yoxdur!**

**Soylu Atalı:** “Aqibət” izharını Türkel oxusun!

**Türkel Atalı:**

**AQİBƏT**

İnsanı torpağa basdırdılar.

Tabutunun üzərində göz yaşı tökdülər, baş daşına ismini, doğulduğu tarixi həkk elədilər, xatirələrini yad etdilər.

Biri dedi: Gözəl ailə başçısı öldü.

O biri dedi: Xeyirxah, xalqsevər öldü.

Digəri dedi: İti, parlaq zəka məhv oldu.

Biri dedi: Həssas, zərif, hərarətli ürək sahibini itirdik.

O biri dedi: İşıqlı mənəviyyat söndü.

Mərhumun vəfadarlığından, fədakarlığından, mətanətindən doyunca danışdılar.

Lakin bu sözlərin hamısı bir yerdə İnsanı ifadə etmirdi. Çünki İnsan bu deyilənlərdən sonsuz dərəcə artıq idi, onlara sığmırdı. Əslində insanı heç kəs tanıya bilməmişdi, o, həyata naməlum gəlib, naməlum da gedirdi, heç kəs onun kim olduğunu dərk etməmişdi, o dünyaya, adi təsəvvürlərə sığmamışdı, torpağa da sığmayacaqdı, təbiətlə birgə oyanacaq, sifətlərə, saçlara, dodaqlara, əllərə, ruhani niyyətlərə, arzulara, fikrə, duyğuya çevriləcəkdi, tapmadığı dünyasını daim arayacaq, arayacaqdı.

**Soylu Atalı:** Nə baş verib, kim gedib aradan, niyə gedib, niyə gəlmişdi?! Yəni bunların hamısını ifadə eləyən “Ölmızlik” izharını Yasin bəy oxusun!



**Yasin Türksoy (Oxuyur):**

## ÖLMƏZLİK

**1**

Görməyən Göz – sənin deyil.
Duymayan Ürək – sənin deyil.
İşləməyən Əl – sənin deyil.
Yeriməyən Ayaq – sənin deyil.
Düşünməyən Beyin – sənin deyil.

**2**

Gördüyünü qəbrə aparmırsan.
Duyduğunu qəbrə aparmırsan.
İşlədiyini qəbrə aparmırsan.
Yeridiyini qəbrə aparmırsan.
Düşündüyünü qəbrə aparmırsan.
**Getmirsən – qalırsan!**

**3**

Ölümdən əvvəl bədəndən ayrılırsan.
Bədən ölür – sən qalırsan.
Bəşər yaşayanacan yaşayırsan.
Həyata bütöv gəlirsən,
Sonra parçalanır, paralanırsan.
Həyata qarışırsan və təzə bütövlərə yarayırsan.

**4**

Bədən bütövlüyünə sığmırsan, Ondan kənara çıxırsan, Bütövlüyünü itirirsən, Ondan ayrılırsan.
Həyat xamırına duz kimi qatılırsan.
Təzə bütövlər yaranır – parçalanmaq, paralanmaq, həyata qarışmaq üçün.

**5**

Biçimə sığmır Ruh,
Biçimdə dayanmır, qalmır,
Biçimsizləşir – təzə biçim yaradır.

**6**

Ruh özünə uyğun biçim arayır, fəqət tapmır.
Biçimlərin heç biri Ruha yaramır.
Biçimlərin hamısını rədd eləyir Ruh.
Qalaq-qalaq biçim yığılır Qəbiristanlığa.

**7**

Torpaqdan yaranmır Ruh.
Oddan yaranır.
Şimşəkdən yaranır.
Buluddan yaranır.
Günəşdən yaranır.
Torpaqdan yaranan bədəndir – Torpağa yarayır.

**8**

Meyidə çevrilən – İnsan deyil.
Torpaq altda çürüyən – İnsan deyil.
Həşərata qismət olan – İnsan deyil.

**9**

Ölümdə biçim mənadan ayrılır,
İnsana yad olur,
Yadı öldürür əslində ölüm.

**10**

Ruh səndən əvvəl yaranır,
Səndən sonra yaşayır.
Bədənlərdən ayrıla-ayrıla yaşayır.
Bədənə sığmır.
Bədənsiz də yaşaya bilmir.

**11**

Şimşəyin göy məkanı var – Kamil.
Günəşin göy məkanı var – Kamil.
Buludun göy məkanı var – Kamil.
Yağışın göy məkanı var – Kamil.
Ruh məkansızdır.

**12**

Ruh bədənə salınır.
Ruh bədəndə çırpınır.
Quş kimi uçmaq istəyir Ruh.
Dəniz kimi coşmaq istəyir.
Şimşək kimi çaxmaq istəyir.
**Bədən sınanda, sındırılanda azad olur əsarətdən – təzə əsarətə düşmək üçün.**

**13**

**Bədəndən uzaq, bədənə yad, bədəndən uca, bədənə sığmayan və bədəndə yaşayan, bədənə salınan, ölməzliyi qədər fəlakətli Ruh!**

**14**

**Heç kəs Ruha bərabər deyil,**
**Buna görə də hamı ölümlüdür.**
**Heç kəs bədənə bərabər deyil,**
**Buna görə də hamı ölümsüzdür.**

**Soylu Atalı:** Asif Atada Ruh – İnam, İdrak, Mənəviyyat, İradə birliyidir. Heç kəs ona tam bərabər deyil. Buna görə də hamı, bədən baxımından, biçim baxımından, ölümlüdür. Heç kəs bədənə bərabər deyil. Yalnız bədən deyil, biologiya deyil. Ona görə hamı ölümsüzdür. Bax, burada, insanda nə ölür, nə ölməzdir, məsələsi açılır əslində.

Bununla da biz mərasimimizi başa çatdırırıq. Sonda "Matəm üstə Mütləqlə Təmas"ı mən oxuyacam, rica edirəm ayağa duraq.

***(Hamı ayaq üstə sayğı duruşunda dinləyir).***

## MATƏM ÜSTƏ MÜTLƏQLƏ TƏMAS

Ölən – Əzəlidə qalır.
Əbədidə qalır.
Sonsuzda qalır.
Kamildə qalır.
Üzlərdə qalır.
Gözlərdə qalır.
Dodaqlarda qalır.
Xalqda qalır.
Ölən – Gerçəklikdən gedir – Mənada qalır.

*Bundan sonra Bayraq ortadan qaldırılır, gələnlərə çay süfrəsi açılır.*

***Atamız Var olsun!***

Səsdən sözə çevirdi: **Ulunur Atalı.**

*21 Qürub Ayı, İnam Günü. 33-cü il.*
*(avqust, 2011.)*